DOI: https://www.doi.org/10.36719/2663-4619/65/12-16

**Rafail Ayvaz oğlu Əhmədli**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
fəlsəfə elmləri doktoru, professor
ehmedli.rafail@mail.ru
**Elxan Musa oğlu Quliyev**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
kiçik elmi işçi
elxan.guliev.1952@mail.ru

# NƏRİMAN NƏRİMANOVUN FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *XX əsrin əvvəlləri, siyasi-ideoloji cərəyanlar, bolşeviklər, N.Nərimanovun ictimai və ədəbi dünyagörüşü, siyasi – ideoligi, inqilabi fəaliyyət*

## Main activities of Nariman Narimanov

**Summary**

The article examines the aggravation of the struggle between political and ideological trends in Azerbaijan at the beginning of the twentieth century, the separation of the liberal national bourgeoisie, representing the ideology of the Azerbaijan Democratic Republic from the radical Marxist-Bolsheviks in relation to private property and the state system, and the subsequent processes associated with the development of events. At the same time, the article highlights the social and literary worldview of N.Narimanov, analyzes his political and ideological, revolutionary activities, and draws a general picture of the period of real power of N.Narimanov.
***Key words:*** *The beginning of the twentieth century, political and ideological trends, the Bolsheviks, the social and literary worldview of N. Narimanov, political and ideological, revolutionary activities*

XX əsrin əvvəllərində Azərbaycan fəlsəfi və ictimai-siyasi fikri mürəkkəb və keşməkeşli bir təkamül yolu keçmiş, ziddiyyətli siyasi-ideoloji və sosial proseslər milli ziyalıların dünyagörüşünü dəyişdirmiş, zaman keçdikcə xüsusi mülkiyyətə münasibət məsələsində ideoloji-fəlsəfi və siyasi cərəyanlar arasında mübarizə kəskinləşmiş, onlardan hər birinin Azərbaycan dövlət quruculuğu haqqında öz mövqeləri olmuşdu. Belə ki, xüsusi mülkiyyətə və dövlət quruluşuna münasibət Azərbaycan Xalq Cümhuriyyətinin ideologiyasını təmsil edən liberal milli burjuaziya təmayüllü demokratik mütəfəkkirlərin dünyagörüşünü sosial-siyasi və fəlsəfi baxışlarını radikal marksist-bolşevik təmayülündən ayırmış və zaman keçdikcə onlar arasındakı qarşıdurmanı kəskinləşdirmişdi. Ölkədə ideoloji-siyasi mübarizənin müəyyən mərhələsində Nəriman Nərimanov başda olmaqla bəzi liberal siyasi maarifçilərin marksizm cəbhəsinə keçməsi onları liberal milli cərəyanın nümayəndələrindən və digər milli ziyalılardan ayırmışdı.

Azərbaycan xalqının ictimai-siyasi, ideoloji və fəlsəfi fikir tarixində görkəmli ədib və dramaturq olan Nəriman Nərimanova (1870-1925) “XX əsrin hər tarixi mərhələsində münasibət fərqli olmuşdur” (1, 21).

Nəriman Nərimanovun ictimai-siyasi fəaliyyətinə, fəlsəfi dünyagörüşünə haqq qazandıranlar göstərirlər ki, “Nərimanov bütün həyatı və yaradıcılığı boyu vahid və ardıcıl bir əqidə nümayiş etdirmiş, bütün amalı öz xalqına, millətinə sədaqətlə qulluq etmək, xalqını maarifləndirmək, onun sosial vəziyyətini yaxşılaşdırmaq, fərdi və ictimai miqyasda sağlam mühit yaratmaq və bunun sayəsində milli intellektual potensialı buxovlardan xilas edərək onun özünü ifadəsi üçün şərait yaratmaqdan ibarət olmuşdur. İstər əbədi-bədii, istər maarifçilik və istərsə də ictimai-siyasi fəaliyyətində, iqtidarda olduğu dövr də daxil olmaqla, o, həmişə bu amala xidmət etmişdir” (8).

Nəriman Nərimanovun həyat və fəaliyyətini tədqiq edən tədqiqatçıların fikrincə, onun dünyagörüşü, əqidəsi yalnız kommunist ideologiyasının, xüsusilə bolşevizmin təsiri ilə formalaşmamış, o, Lenin məktəbinin yetirməsi olmamışdır. O, böyük bir millətçi və vətənpərvər olmuş, hansısa bir qrupun, partiyanın maraqlarından deyil, ilk növbədə milli maraqlardan çıxış etmiş, milli dövlətçilik idealını təmsil edən böyük bir türkçü olmuş, öz milli maraqlarını sosial-siyasi görüşləri ilə uzlaşdırmağa və ictimai-siyasi fəaliyyətini də məhz bu kontekstdə qurmağa çalışmışdır. Nərimanovun müəyyən bir vaxtda, tarixin müəyyən bir kəsiyində, müəyyən bir coğrafi-siyasi şəraitdə zamanın müəyyən bir gerçəkliyi olan sosial-demokratik hərəkatın və daha sonra kommunist ideologiyasının təsir sferasında və bu hərəkatın sosial-energetik potensialından bəhrələnərək öz şəxsi əqidəsini və milli ideallarını həyata keçirməyə çalışmışdı (8).

Tarixdən bəllidir ki, çar Rusiyası devrildikdən sonra siyasi-ideoloji təşkilatlar Rusiyanın idarə şəklinin necə təşkil olunması haqqında fikir ayrılıqları yaranmış, Rusiya bolşevik partiyası ilə həmfikir olan Azərbaycandakı bolşevik "Hümmət" və Rusiya sosial-demokrat menşevik partiyasının tərəfdarı olan menşevik "Hümmət"çilər "Vahid Rusiya", milli müqəddəratda fəal rol oynayan "Müsavat" partiyasının rəhbərləri isə öncə "Federetiv Rusiya" sonra Rusiyadan ayrı "Federativ Zaqafqaziya", daha sonra isə "Müstəqil Azərbaycan" ideyasını irəli sürmüş, bir müddət Rusiyadan ayrı "Federativ Zaqafqaziya", sonra isə "Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti" yaratmağa nail olmuşdular.

1906-cı ilə qədər "Konstitusiyalı monarxiya", sonra "Demokratik Respublika", 1917-ci il fevral inqilabından sonra "Sovet hakimiyyəti" formasında "Proletariat diktaturası" tərəfdarı olan Nəriman Nərimanov məhz yuxarıda adı çəkilən bolşevik "Hümmət"çilərin başçısı olmuşdur. 1917-ci il oktyabr çevrilişindən sonra Nərimanov bütün dünyanın yalnız sinfi mübarizə yolu ilə azadlığa çıxacağına inanmış və bu yolda çalışmışdır.

Ümumiyyətlə, Nəriman Nərimanovun uşaqlıq və gənclik dövrünü nəzərə almasaq, onun ictimai-siyasi fəaliyyətini 3 dövrə bölmək olar:

1) Maarifçilik dövrü;
2) İnqilabi-siyasi fəaliyyət dövrü;
3) Formal hakimiyyət dövrü.

Nəriman Nərimanov ictimai və ədəbi fəaliyyət dövründə əsasən maarifçiliklə məşğul olmuş, 1890-cı ildə Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra bir müddət müəllimlik etmiş, jurnalistliklə məşğul olmuş, 1894-cü ildə "Nadanlıq", 1895-ci ildə "Şamdan bəy", 1899-cu ildə "Nadir Şah", 1908-ci ildə "Bahadır və Sona" kimi ədəbi əsərlər yazmış, Azərbaycan türkcəsi və rus dilini öyrənənlər üçün dərsliklər tərtib etmiş, rus yazıçısı N.V.Qoqolun "Müfəttiş" komediyasını Azərbaycan türkcəsinə tərcümə etmiş, Bakıda ilk xalq qiraətxana-kitabxanası təçkil etmişdi. O, fəaliyyətinin maarifçilik dövründə bədii əsərləri ilə yanaşı dövrün bir sıra qəzet və jurnallarında gerilik, cəhalət və fanatizmi kəskin tənqid etmiş, xalqın maariflənməsində əlindən gələni əsirgəməmişdir.

Nəriman Nərimanovum fəaliyyətinin ikinci dövrü (1905-1920) onun siyasi-inqilabi fəaliyyət dövrüdür. 1905-ci ildə sosial-demokrat "Hümmət" təşkilatının üzvü olan Nərimanov Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının (RSDFP) proqramını Azərbaycan türkcəsinə tərcümə etmiş, dövrünün bir sıra qəzet və jurnallarında üsyankar inqilabi məqalələrlə çıxış edərək çar istibdadını kəskim tənqid etmiş, xalqın azadlığı yolunda ardıcıl mübarizə aparmışdır.

Nərimanov 1908-ci ildə Odessadakı Novorosiysk İmperator Universitetinin tibb fakültəsini bitirib diplomunu aldıqdan sonra Bakıya gələrək şəhər xəstəxanasında işləməyə başlamış, lakin siyasi məsələlərlə məşğul olduğu üçün 1909-cu ilin sentyabrında Həştərxana sürgün edilmiş, 1913-cü ilə qədər Həştərxanda qalan Nərimanov yenidən Bakıya qayıdaraq burada ictimai-siyasi fəaliyyətlə və maarifçiliklə məşğul olmuş, fəhlələr arasında təbliğat aparmış, 1917-ci ildə bolşevik "Hümmət" təşkilatının sədri, Bakı şəhəri üzrə RSDF(b)P-nin üzvü, "Hümmət" qəzetinin redaktoru 1918-ci il aprelin 25-də bolşevik-daşnak Stepan Şaumyanın rəhbərliyi altında yaradılan Bakı Xalq Komissarları Sovetində Şəhər təsərrüfatı üzrə xalq komissarı olmuş, 1918-ci il Bakı mart qırğınını Şaumyanın rəhbərliyi ilə ermənilərin törətdiyi faciəni göründən sonra ağır xəstəliklə əlaqədar olaraq Bakını tərk edərək 1918-ci ilin iyun ayında Həştərxana müalicəyə göndərilmiş, sağaldıqdan sonra Həştərxanda bir sıra partiya orqanlarında çalışmış, 1919-cu ildə Moskvaya çağırılaraq RSFSR Xalq Xarici İşlər Komissarlığında Şərq məsələləri üzrə Xalq Komissiyasının müavini vəzifəsinə təyin edilmişdi.

Biz Nəriman Nərimanovun fəaliyyətinin maarifçilik dövrünü yüksək qiymətləndirməklə yanaşı, heç bir polimika açmadan onun Azərbaycan Xalq Cümhuriyyəti və onun yaradıcılarına qarşı düşmən münasibət bəsləməsini, həmçinin Türküstanda da Sovet hakimiyyətinin qurulmasını istəməsi və oralarda da marksist ideologiyasının yayılmasına çalışmasını qəbul etmirik. Belə ki, o, Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri Nəsib bəy Yusifbəyliyə 16 iyul 1919-cu ildə Həştərxandan yazdığı müraciətində bildirirdi ki, nə qədər ki siz "millət" və "din" sözlərini tez-tez təkrar etməklə məşğul idiniz. Mən öz nöqteyi-nəzərimdən sizə geridə qalan adamlara baxan kimi baxıram... Mərd-mərdanə deyin: biz Rusiya inqilabının xarakterini anlamamışıq. Biz dağıdıcı imperialist müharibəsinin bütün nəticələrini nəzərə ala bilməmişik, bu meydandan çəkilirik, qoy Azərbaycanda Sovet hakimiyyəti olsun. Bununla siz rus proletariatı qarşısında təqsirinizi yüngülləşdirmiş olarsınız (11, 215-219).

Nərimanov Türküstanla bağlı da yazırdı: "Biz Türküstana ciddi diqqət yetirməliyik, çünki Şərqdəki gələcək işimizdə Türküstan mərkəzi bir yol tutur. Biz heç də istila siyasəti ilə məşğul olmaq fikrində deyilik. Çünki biz Şərqə azadlığı silah ilə deyil, öz ideyalarımızı yaymaq yolu ilə aparırıq" (11, 231).

Nəriman Nərimanovun fəaliyyətinin formal hakimiyyəti dövrü (1920-1925) Bakının XI Qırmızı Ordu tərəfindən işğalı və Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğradıldığından sonrakı beş ili əhatə edir. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıldıqdan və Azərbaycan Sovet Sosialist Respublikası elan edildikdən sonra qiyabi olaraq Azərbaycan SSR Müvəqqəti İnqilab Komitəsinin sədri və Xalq Komissarları Sədri (Baş naziri) vəzifəsinə təyin edilərək Bakıya göndərilən Nəriman Nərimanov 16 may 1920-ci ildə Bakıya gələrək gözləmədiyi bir vəziyyətlə qarşılaşmalı olmuşdu. Tədqiqatçılar göstərirlər ki, "əslində mərkəzin (Moskva bolşevik hakimiyyəti nəzərdə tutulur – R.Ə.) bu təyinatı Nəriman Nərimanovun siyasi intiharının başlanğıcı olmuş, onun öncə qazandığı xalq sevgisini tarixə gömmüş oldu" (3, 14).

Mərkəz tərəfindən Nərimanov Azərbaycan hökuməti başçısı təyin olunsa da, Azərbaycanın ilk əvvəllər zahirən Komissarlar heyəti və İcra Komitəsi tərəfindən idarə olunması göstərilsə də, əslində ölkə Mərkəzin göndərdiyi və müdafiə etdiyi şəxslər, xüsusilə Rusiyaya tabe olan "Neftkom"un sədri rus Serebrovski, Azneft rəisinin müavini rus Barinov, Bakı fəhlə şurasının rəisi rus Kırılov, Bakı qəzası hərbi komissarı Anefski, Xüsusi Qafqaz ordusu komandanı rus Yeqorov, hərbi rəhbər Sıçkov, Azərbaycan Xalq Maarifinin şöbə müdiri rus Barçov, siyasi Maarif müdiri müavini Tartakov və ən başlıcası Nəriman Nərimanov hələ Azərbaycana gəlib çatmamış "Türkiyəyə kömək" pərdəsi altında Azərbaycana daxil olan XI Qırmızı Ordu qüvvələri 1 mayda Bakını, 1 ay müddətində də bütün Quzey Azərbaycanı istilaya məruz qoymuş, ölkəni yağmalamış, ölkədəki Türk komandanlarını ruslarla əvəz etmiş, nə qədər Osmanlı Türk zabiti varsa hamısını ya həbs etmiş, ya da ölkədən çıxarmış, milli ziyalıları, şəhər, qəsəbə və kəndlərdə olan mötəbər adamların kökünü birdəfəlik kəsmək üçün sorğusuz-sualsız qurşuna düzmüş, hər tərəfdə fəaliyyətə başlayan ÇK-lar gecə-gündüz qanlı işlərini davam etdirmişdi ki, bütün bunların da başında Azərbaycanın həqiqi diktatoru, cəlladbaşı, XI Qırmızı Ordunun siyasi şöbəsinin rəisi V.A.Pankratov dururdu. Pankratovun əmrinin fövqündə bir əmr yox idi. ÇK məmurunun özbaşınalığı o həddə çatmışdı ki, o hətta Azərbaycan Komissarlarının rəisi olan Nəriman Nərimanovun özünü belə həbs etmişdi. Bir sözlə Azərbaycanın xarici və daxili siyasəti, iqtisadi, hərbi sahələri, dəmir yolu, neft müəssisələri tamamilə Rusiyanın ixtiyarına keçmiş, xalq maarifi, səhiyyə və inzibati dairələri də başqa millətlərdən olan şəxslər tərəfindən idarə olunmağa başlanılmışdı. Belə bir vəziyyətdə Nəriman Nərimanov təkbaşına heç nə edə bilməzdi və zatən də edə bilməmişdi.

Azərbaycanda Türk milli mədəniyyəti əleyhinə görülən təşəbbüslər o qədər geniş vüsət almışdı ki, hökumət başçısı olmasına baxmayaraq Nərimanov konkret addımlar ata bilməmiş, bütün bunlara qarşı məqalələr yazaraq qəzetlərdə çap etdirmək məcburiyyətində qalmışdı. O, Bakıda rusca nəşr edilən "Bakinski raboçi" və türkcə nəşr edilən "Kommunist" qəzetində nəşr etdirdiyi bir məqaləsində yazmışdı: "Azərbaycan fəhlə və kəndlisi bəzi səbəblərdən siyasi haqqından, bütün mülkiyyətindən, iqtisadi faydasından keçə bilər. Fəqət öz dilindən kimsəyə fədakarlıq yapmaz" (14, 85).

Nəriman Nərimanovun Azərbaycanda olduğu müddətdə bütün istəklərinin tam yerinə yetirilməyəcəyini anlayan Stalin, Orconikidze, Kirov, Mikoyan, Moskvadan Bakıya göndərilən partiya və təsərrüfat rəhbərləri, xüsusən, Bakıdakı erməni rəhbər işçiləri onu Azərbaycandan uzaqlaşdırmaq məqsədilə "Lenin və partiya" qarşısındakı xidmətləri nəzərə alınaraq "1922-ci ildə Moskvaya dəvət olunmasına və onu Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri təyin olunmasına nail olmuşdular.

Nəriman Nərimanov 1923-cü ilin yanvarından ömrünün axırına qədər SSRİ Mərkəzi İcraiyyə Komiitəsinin dörd sədrindən biri olmuşdur. Moskvada işlədiyi dövrdə "Lenin və şərq", " "Lenin və müsəlman Şərqi", "Elmi kommunizmi başa düşmək yolları", "Milli məsələ" adlı əsərlərini yazaraq, "Leninizm"i müdafiə və təbliğ etmişdi. V.İ.Leninin ölümü ilə əlaqədar matəm günlərində N.Nərimanov "İzvestiya" qəzetində çap olunmuş "Lenin və müsəlman Şərqi" adlı məqaləsində yazırdı ki, qəlbi bütün müsəlman xalqları üçün şəfqətlə döyünən, onları əsarətdən azad edib müstəqil inkişaf yoluna çıxarmağın səmimi arzusunda olan "dünyanın ən böyük psixoloqu" Leninin vəfatı Şərq aləmində dərin bir kədər doğurmuşdur (9).

Nəriman Nərimanovun həyatının son illərində Azərbaycan xalqına qarşı aparılan qeyri-səmimi və hətta düşmənçilik siyasəti ilə bağlı Stalin, Orconikidze, Kirov, Mikoyan və Moskvadan Bakıya göndərilən partiya və təsərrüfat rəhbərləri, xüsusən Bakıdakı erməni rəhbər işçiləri ilə münasibəti gərginləşmiş və bu ziddiyyət getdikcə dərinləşmişdi. O, "Ucqarlarda bizim inqilabın tarixindən" adlı yazısından seçdiyi hissləri məktub formasında Stalinə, surətini Trotskiyə göndərmişdi (2).

Nərimanov ömrünün sonlarında aldadıldığını, onun fikri ilə hesablaşmadıqlarını anlamışdı. Onu daşnak Mikoyan millətçilikdə ittiham edir, bu işi Bakıda Orconikidze və Kirovun himayəsi altında Bakı partiya təşkilatının rəhbərləri olan Mirzoyan, Sarkis davam etdirir, yerli satqınlar Əliheydər Qarayev, M.D.Hüseynov və başqaları da onlara qoşulurdu. Nərimanov göstərirdi: "Mən tam bir il neft məhsullarından Azərbaycanın xeyrinə ayırmaq üçün Serebrovski yoldaş ilə mübarizə apardım. Məsələni siyasi büroya qədər

çatdırdım, o da Serebrovskiyə tapşırdı ki, bunu etsin. Nə üçün Respublika Mərkəzi Komitəsi bu qərarın yerinə yetirilməsini izləmir? Ona görə ki, Kirov, Mirzoyan və kompaniyaları bu işə son dərəcə etinasız idilər... Onlar üçün Azərbaycan kəndlisinin cəhalət bataqlığında boğulmasının nə fərqi var”. O, soruşurdu: “Həqiqətən indiki Azərbaycanda məhz Azərbaycanı təmsil edən partiya varmı? Mən təsdiq edirəm: bu partiya yoxdur və o vaxta qədər olmayacaq ki, Mirzoyanlar özlərini Azərbaycanı simasızlaşdırmaq kimi murdar siyasətlərindən əl çəkməyiblər... Bakı təşkilatına rəhbərlik edən ermənilər və rus şovinistləri cinayətkar siyasət yürüdürlər” (2).

Özünün ermənilər tərəfindən Azərbaycandan uzaqlaşdırıb Dağlıq Qarabağa muxtariyyət almaq istəmələrini şərh edərkən göstərir ki, mən Moskvaya işə gedəndən sonra Dağlıq Qarabağ Mirzoyanın güclü təzyiqi nəticəsində “Muxtar Vilayət” elan edildi. Mənim vaxtımda buna nail ola bilmirdilər... Sonra Gəncənin dağlıq hissəsi və s. haqqında məsələlər gəlirdi. Azərbaycanda daşnaq siyasəti var və bu gücü ilə gedir. Mən zərrə qədər də şübhə etmirəm ki, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi (AKP MK), Serqo Orconikidze və Stalinin simasında biz türklərə inanmır və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırırlar. Qəribə burasıdır ki, bu adamlar düşünürlər ki, türklər o qədər qanmazdırlar ki, bunu başa düşmürlər (2).

Azərbaycan Xalq Komissarları Sovetinin sədri, Zaqafqaziya İttifaq Sovetinin sədri, SSRİ Mərkəzi İcraiyyə Komitəsi dörd sədrindən biri kimi yüksək vəzifələrdə çalışan, Azərbaycan Xalq Cümhuriyyəti və onun yaradıcılarına düşmən münasibət bəsləyən, Türküstanda Sovet hakimiyyətinin qurulmasına çalışan, kommunistlərin “parlaq liderləri”nə ürəkdən inanan Nəriman Nərimanovun “ömrünün axırına qədər öz əqidəsindən dönməməsini” dəstəkləyən tədqiqatçıların (5; 10). gəldiyi ümumi nəticə bundan ibarətdir ki, Nəriman Nərimanov o illərin azərbaycanlısı üçün bolşevizmin təzahürü kimi deyil, milli təmayüllü siyasətçi kimi inam qazanmışdır. “Milli təmayüllü kommunist” məfhumunu məhz N.Nərimanovun anlayışında qəbul etmək lazımdır: yəni azərbaycanlılar başqa xalqların maraqlarına toxunmadan Azərbaycanda tam milli inkişaf və ölkələrini idarə etmək hüququna malik olmalıdırlar. N.Nərimanov buna riayət edilmədiyindən bolşevizmin süquta məruz qalacağı fikrini irəlicədən söyləmişdir (12, 446-447).

Nəriman Nərimanovun apardığı milli təmayüllü siyasət sonralar “Nərimanovçuluq” adlı cərəyana çevrilmişdir. Deməli, N.Nərimanovun milli təmayüllü dünyagörüşünün kökləri həyat və yaradıcılığı ilə, xalqının yaşayışını və problemlərini, Azərbaycana qarşı hazırlanan məkrli planları, dünyada və bölgədə gedən prosesləri dərindən dərk etməsi ilə bağlı olmuşdur... N.Nərimanov Azərbaycan xalqının milli-mədəni inkişafına, din probleminə, Azərbaycan dilinə dövlət statusu, milli ziyalılara və təhsilə önəm verilməsinə Milli Dövlətçiliyin tərkib hissəsi kimi baxmış, ona xüsusi diqqət yetirmiş, Azərbaycan adət-ənənələrinin qoruyucusu, elm, təhsil və mədəniyyətin inkişafına qayğı göstərən başlıca şəxs olmuşdur. O, bu sahələrdə müvafiq sənədlər imzalamış və fəaliyyət göstərmişdir. N.Nərimanovun bu sahədəki fəaliyyəti Azərbaycan xalqının düşmənlərinin və bir sıra məhdud düşüncəli Azərbaycan bolşeviklərinin qəzəbinə tuş gəlmiş və onun əleyhinə geniş kompaniyaya başlamışdılar (7).

Nəriman Nərimanovu kommunist ideologiyasına münasibətdə və Rusiya bolşevikləri ilə əlaqələrdə milli maraqlara səthi yanaşmaqda, xüsusilə Azərbaycan Xalq Cümhuriyyətinin qurucularına qarşı düşmən münasibətdə olduğunu əsas götürərək onu tənqid etmiş (4). və göstərmişlər ki, bizcə, N.Nərimanovla bağlı irəli sürülən tənqidi fikirlər heç də əsassız deyildir. Belə ki, Azərbaycan Cümhuriyyətinin timsalında Azərbaycan xalqı bir millətin taleyində önəmli rol oynayan ideyaları (istiqlal, müstəqil parlament, müstəqil ordu, bayraq və s. əldə etdikdən sonra, onu Sovet Rusiyasının əli ilə yıxıb yerində “müstəqil” Sovet Azərbaycanı qurmağında, bu mənada Nərimanovun Sovet Rusiyasının başçıları ilə əslində tabeçilik anlaşması əsasında, onların qarşısında hansısa şərtlərlə çıxış etməsinin də heç bir anlamı yox idi. Burada qazanan yalnız bir tərəf var idi: Sovet Rusiyası və onun əlaltıları. Fikrimizcə, bu baxımdan Nərimanov Sovet Rusiyasından deyil, Sovet Rusiyası Azərbaycan Cümhuriyyətini işğalı planı çərçivəsində “Nərimonov faktoru”ndan maksimum faydalanmışdır. Bunu həmin dövrdə Moskvada yaşayan Nərimonovun Azərbaycanda baş verənlərlə bağlı Lenini daima məlumatlandırması, “Qafqazın işğalına baxış” məruzəsi və xüsusilə Azərbaycan Cümhuriyyətinin baş naziri Nəsib bəy Yusifbəyliyə yazdığı məktubundan aşıq şəkildə görmək mümkündür. Belə ki, Nərimanov özü etiraf edirdi ki, Moskvada olduğu dövrdə (1919-may 1920) Azərbaycanda hakimiyyətin bolşeviklərin əlinə keçməsi üçün hazırlıq irəli sürümüş, Nərimanov da bu planın həyata keçirilməsi üçün mərkəzi hökumətə, xüsusilə Leninə xidmət etmişdi (13, 13).

O, həmçinin Nəsib bəy Yusifbəyliyə yazdığı məktubunda özünün bolşeviklərlə bir yerdə olmasını siyasi-ideoloji baxışlarındakı fərqlərlə izah etməyə çalışmış və göstərmişdi ki, “Siz pantürkizm və panislamizm ideyalarını yayarkən, mən bir kommunist kimi sizin qəti əleyhinizə çıxmışdım, lakin sizin Türkiyə qanadı altına girmək cəhdinizə, bir psixoloq kimi lütfkaranə baxırdım. Türkiyə “zəfərlə” gəlib rüsvayçılıqla getdi” [11, 216].

Tədqiqatçılar göstərirlər ki, çox keçmədən Nərimonovu qanadının altına alan Sovet Rusiyası da Azərbaycana “zəfərlə” gəldi, ancaq şimal ölkəsi Türkiyədən fərqli olaraq ləyaqətlə getmədi. Sözün həqiqi mənasında bu ölkəni 70 il müstəmləkəsi kimi idarə etdi (6, 124).

Biz Nəriman Nərimonovla bağlı hər iki tərəfin fikir və mülahizələrinə hörmətlə yanaşaraq “Şərq dahisi” olma xülyasına düşən Nəriman Nərimonovu birmənalı olaraq böyük oyunların uğursuz qurbanı hesab edir, onun siyasi baxışlarını deyil, əsasən maarifçiliyini yüksək qiymətləndiririk

**Ədəbiyyat**


1. Alışanov Şirindil. Yaradıcı ömrün böyük bəhrəsi, professor Teymur Əhmədovun “Nəriman Nərimanov (həyatı, mühüm və ədəbi-bədii yaradıcılığı) adlı əsəri haqqında “Ədəbiyyat qəzeti” 7 aprel , 2018.
2. Azərbaycan EA-nın “Xəbərləri” (tarix, fəlsəfə, hüquq), № 4, Bakı, 1989.
3. Aydın Mədət oğlu Qasımlı. Böyük oyunların uğursuz qurbanı bolşevik Nəriman Nərimanov. “Türküstan” qəzeti, 22 dekabr, Bakı, 2016.
4. Balayev Aydın, Plennik idei ili politiçeskiy slepeç, “Azərbaycan” qəzeti, Bakı, 20 iyun, 1991.
5. Əhmədov Teymur, Nəriman Nərimanovun yaradıcılıq yolu, Bakı, Elm, 1991.
6. Ələkbərov Faiq. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə), “Elm və təhsil”, Bakı, 2014.
7. Həsənov Həsən. Nəriman Nərimanov: milli ruh və siyasi təfəkkürün vəhdəti. Nəriman Nərimanov – 140, AFSEA, 2 (30), Azərbaycan Universiteti, Bakı, 2010.
8. Xəlilov Səlahəddin Milli İstiqlal və sosial ədalət ideallarının uzlaşdırılması yolu, Nəriman Nərimanov – 140, AFSEA, fəlsəfə və sosial-siyasi elmlər, elmi-nəzəri jurnal, Bakı, 2016.
9. 9.İzvestiya” qəzeti, Moskva, 25 yanvar, 1924.
10. Mir Cəlal. Görkəmli yazıçı, realist, “Ədəbi Azərbaycan”, 1956, № 6;
11. Nərimanov Nəriman. Məqalələr və nitqlər. Bakı, 1971.
12. Nəriman Nərimanov. Oğlum Nəcəfə məktub, Nəriman Nərimanov. Seçilmiş əsərləri , Bakı, AMEA, 2001.
13. Nərimanov Nəriman, V.İ.Lenin haqqında, Bakı, Azərnəşr, 1957.
14. Rəsulzadənin M.Ə. “Azərbaycan Cümhuriyyəti”. Bakı, 1990.


Göndərilib: 16.04.2021 Qəbul edilib: 21.04.2021